Kredo 21iyul.-2023.-S.15



# DÖNGƏLƏRİN GÜNDÜZÜ MƏN

*Zaur ƏRMÜĞAN*

## SEHRİN BƏZƏYİ

Qışın soyuq ayazı, sərt qırovu,
Bu dağlarda duman duman, sisdir sis.
Od-od çatır tonqalında alovu,
Tüstüsündə ocaq daşı hisdir, his.

Yollarının nə əvvəli, nə sonu,
Ətəklər göy, zirvələrin ağ donu,
Yarğanına daş uçurar uçqunu,
Dərəsində kişnərtisi səsdir, səs.

Çox dərmişəm qayasından çiçəyi,
Ayaq altda ovdum daşı, kəsəyi,
Ay Ərmuğan, sözün sehrin bəzəyi,
Ürəklərdə adın qala, bəsdir, bəs.

*9 noyabr 2014*

## İNCİK

Gün saçıldı bu dağların üzünə,
Günəş çılğın, duman küskün, çən incik.
Bu qəm bitməz, qəsd edimmi özümə?
Mən neyləyim, mən yazıqdan sən incik?!

Qəfil yellər aralıqda əsər də,
Ah içini doğrayar da, kəsər də,
Yar yarıyla barışar da, küsər də,
Bir inciksən, inciklərdən ən incik.

Qovğalarda əldən getdi dincliyim,
Qısılmışam dar bucağa, künc yerim,
Qocaltmısan məni, solub gəncliyim,
Sanma, səndən saçımda ağ dən incik.

Sular oda, od sulara yovuşmaz,
Yer dağıla, göy əzilə, qovuşmaz,
Bir ocağıq, odu közdən sovuşmaz,
Tufan qopa, bil, düşmərəm mən incik.

Haram bilməz, safdır əlim, ayağım,
Bir çiçəksən, yetib sənə sorağım,
Mən Zauram, susmaz, çağlar bulağım,
Öz yarımsan, danış incik, din incik.

*9 noyabr 2014*

## DÜŞÜB

Elə yanıb-alışır ki, bu gözəl,
Yanğısından ürəyimə köz düşüb.
Vurulmuşam camalına mən əzəl,
Dil-dil ötən ağızlara söz düşüb.

Döngələrdə gündüz mənəm, gecə mən,
Bilən bilir, yar sevirəm necə mən?!
Dolaşmaram yollar üstə becə mən,
Bir gözəldir, izlərinə iz düşüb.

Nə var zəri, nə üzündə boyağı,
Yaz gülütək şəfəqlənir yanağı.
Ətirdənmi şərbət dadır dodağı?!
Bir aləmdir, canına bir naz düşüb.

Oğrun-oğrun baxışı var, baxışı,
Odlu şimşək çaxışı var, çaxışı,
Bəxti bəxtdir, naxışı var, naxışı,
Demə, eşqin xəyalına tez düşüb.

Bu gözəli gözlədiyim xeyli var,
Hər cananın bir canana meyli var,
Mən Məcnunam, mənə həmdəm Leyli var,
Ərmuğanın sevdasına göz düşüb.

*9 noyabr 2014*

## OLMAZ

Sular axıb gələr yağış selində,
Çuxur da, çala da dolar, göl olmaz.
Alın təri ilə boy atar hər ting,
Qanqal çiçək açar, qızılgül olmaz.

Tülküyə üz versən, başda oturar,
Şirin qəzəbini nərə yatırar,
Qarğa qarıldayıb qulaq batırar,
Sərçə beyin yorar, heç bülbül olmaz.

Minsən, tez düşərsən özgə atından,
Söz var, elə keçər yeddi qatından.
Bar-bəhər yığılmaz alaq otundan,
Hər toxum torpaqda tər sünbül olmaz.

Ərmuğan, həmişə çağır xeyiri,
Addım at, yol üstə qalsın ləpiri.
Canları isidər ocaq həniri,
Od çatıb yanmasa, yerdə kül olmaz.

*2 avqust 2014*

